2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvləri Tofiq Həsənovun, İradə Hacıyevanın, Rafiq Abbasovun, Samir Tağıyevin və İlkin Şahbazovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 noyabr 2015-ci il tarixli 156, 158, 160, 163, 164 və 165 saylı müraciətləri üzrə birgə

# RƏYİ

Bakı şəhəri 12 noyabr 2015-ci il

2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Müsavat Partiyasından 68 saylı Cəlilabad kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Qurbanov Davud Hadıbək oğlu, 49 saylı Yevlax-Mingəçevir seçki dairəsi üzrə qeydə alınmış namizəd Rüstəmov Nurəddin Telman oğlu, 60 saylı Salyan-Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd Axund Mirzağa Aprel oğlu, 61 saylı Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd Fərəcov Saday Xalid oğlu, 96 saylı Goranboy-Naftalan seçki dairəsi üzrə qeydə alınmış namizəd Yusif Namaz oğlu, 59 saylı Salyan seçki dairəsi üzrə qeydə alınmış namizəd Əliyev Valeh Hümmət oğlu, 10 noyabr 2015-ci il tarixdə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək müvafiq seçki dairələri üzrə səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının yekun protokollarının etibarsız sayılmasını, həmin seçki dairələri üzrə səsvermənin baş tutmamasının və ərizəçilərə münasibətdə Avropa İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Konvensiyasına dair 1 saylı Protokolun 3-cü maddəsinin pozulmasının tanınmasını xahiş etmişlər.

Biz, ekspert qrupunun üzvləri Tofiq Həsənov, İradə Hacıyeva, Rafiq Abbasov, Samir Tağıyev və İlkin Şahbazov həmin müraciətləri bir icraatda birləşdirərək araşdırdıq və aşağıdakıları müəyyən etdik:

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayətvermə müddətində verildiyindən tərəfimizdən araşdırmaya qəbul edilmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, mahiyyəti üzrə eyni məzmunlu müraciətlərə Mərkəzi Seçki Komissiyasının iclasında 5 noyabr 2015-ci il tarixində baxılmış və 42/303 saylı qərar qəbul edilmiş, həmin qərardan maraqlı şəxslər tərəfindən müvafiq məhkəmələrə şikayət edilmiş, qərar dəyişdirilmədən qüvvədə saxlanılmışdır. Göründüyü kimi, ərizəçilərin iddialarının əsassızlığı barədə səlahiyyətli orqanların preyudisiyal əhəmiyyət kəsb edən qərarları qüvvədədir. Ona görə də tələbin təmin edilməsindən imtina edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə  g ə l d i k :**

1. 68 saylı Cəlilabad kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Qurbanov Davud Hadıbək oğlu, 49 saylı Yevlax-Mingəçevir seçki dairəsi üzrə qeydə alınmış

namizəd Rüstəmov Nurəddin Telman oğlu, 60 saylı Salyan-Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd Axund Mirzağa Aprel oğlu, 61 saylı Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd Fərəcov Saday Xalid oğlu, 96 saylı Goranboy-Naftalan seçki dairəsi üzrə qeydə alınmış namizəd Yusif Namaz oğlu və 59 saylı Salyan seçki dairəsi üzrə qeydə alınmış namizəd Əliyev Valeh Hümmət oğlunun 10 noyabr 2015-ci il tarixli müvafiq olaraq 156, 158, 160, 163, 164 və 165 saylı müraciətləri əsassız olduqlarından təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvləri

Tofiq Həsənov

İradə Hacıyeva

Rafiq Abbasov

Samir Tağıyev

İlkin Şahbazov